UOT 336.11

*Toğrul Ramiz oğlu ƏKBƏRLİ*
*Lənkəran Dövlət Universitetinin doktorantı*
*togrulakberli@yahoo.com*

# BÖHRAN ŞƏRAİTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK SİSTEMİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN BƏZİ ASPEKTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – böhran şəraitində iqtisadi təhlükəsizlik sisteminin səmərəliliyinin qiymətləndirilməsinin müxtəlif aspektlərinin təhlili.

**Tədqiqatın metodologiyası** – müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, analiz və sintez metodları.

**Tədqiqatın tətbiqi əhəmiyyətləri** – tədqiqatda aparılmış təhlillər krizis mühitində müəssisələrin maliyyə və iqtisadi təhlükəsizliyinin qorunması üçün atılacaq addımlar kimi istifadə oluna bilər.

**Tədqiqatın nəticələri** – biznes subyektlərinin iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsinə statistik yanaşma tədqiq edilən göstəricilərin variasiyası ilə onun son hədd səviyyəsi arasında tarazlığa - amplitudaya nail olmağa imkan verir. Biznes subyektlərinin iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsinə dinamik yanaşma isə bu subyektlərin inkişaf dinamikasını qiymətləndirməyə yönəlik bir fəaliyyətdir. Bunun üçün ilk növbədə göstəricilərin artım tempinin son hədd səviyyəsi müəyyənləşdirilməlidir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – iqtisadi təhlükəsizliyin qorunması xarakterizə olunmuş və biznes subyektərinin üzləşdiyi müxtəlif risklərdən yaranan potensial təhdidlərə qarşı istifadə edilə biləcək tədbirlər planı dəyərləndirilmişdir.

***Açar sözlər: iqtisadi təhlükəsizlik, biznes subyektləri, təhdid, indikator, risk zonası.***

## *Giriş*

Müasir iqtisadi şəraitin tələblərindən irəli gələrək bu gün sahibkarlıq fəaliyyəti üçün əlverişli iqtisadi mühitin yaradılması baxımından hüquqi, təşkilati, texniki və sosial xarakterli problemlərin vaxtında həll edilməsi mühüm aktuallıq kəsb edir. Bu fakt da danılmazdır ki, şirkətin (firmanın) təchizatçıları, kontragentləri, kreditorları və s. nə qədər böyük və geniş tərkibə malik olarsa, onun idarə edilməsində bir o qədər çox mürəkkəblik yaranır.

Sivil idarəetmə baxımından mürəkkəb və çoxaspektli fəaliyyət spektrinə malik sahibkarlıq subyektlərinin mövcud və ya yaranmaqda olan iqtisadi problemlərdən maksimum müdafiəsinin təşkil edilməsi üçün sistematik olaraq müvafiq tədbirlər həyata keçirilməli, bu proseslərin idarə edilməsinə yanaşmalar kompleks olmalı və sistemin bütün elementləri tam və bütöv halda nəzərdən keçirilməlidir. Bu isə öz növbəsində sahibkarlıq subyektlərinin istehsal-təsərrüfat fəaliyyətinin iqtisadi təhlükəsizliyi üçün kompleks təminat sisteminin (təşkilati-hüquqi xarakter daşıyan və iqtisadi itkilərin aradan qaldırılmasına yönəlik tədbirlər) formalaşmasına ehtiyac yaradır [1, c. 91]. Qanunauyğunluq, iqtisadi məqsədyönlülük prinsipinə söykənən kompleks təminat sistemi özündə əsasən sahibkarlıq subyektlərinin təhlükəsizliyinin təmin edlməsinin məqsəd (daxili və xarici təhdidlərin mimimuma endirilməsi) və vəzifələri (təhdidlərin proqnozlaşdırılması və xəbərdarlıq edilməsi, aşkar olunan təhdidlərin təhlili və qiymətləndirilməsi, qərarların qəbulu), obyekt və subyektləri, taktika və strategiyasından ibarət konsepsiyanı ehtiva edir.

**İqtisadi təhlükəsizlik problemlərinin müasir təhlili**

Son dövrlərdə iqtisadi təhlükəsizlik problemləri, xüsusi ilə biznes subyektləri üçün daxili və xarici təhdidlərin azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq, regional və ölkə miqyasında mürəkkəb iqtisadi situasiya, eləcə də çoxsaylı digər faktorlar bir çox sahibkarlıq subyektlərinin istehsal-təsərrüfat fəaliyyətinə əsaslı şəkildə təsir göstərir. Bu isə o nəticəyə gəlmə-

yə əsas verir ki, təhdid və təhlükələrin aşkar edilməsi və aradan qaldırılması üçün ilk növbədə subyektin iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi həyata keçirilməlidir [2, c. 35-45].

Biznes subyektlərinin iqtisadi təhlükəsizliyi təhdid və təhlükələrin aradan qaldırılması, eləcə də subyektin dayanıqlı fəaliyyəti üçün mövcud resurslardan effektiv istifadə edilməsi ilə xarakterizə olunur. İqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi subyektə imkan verir ki, o, müxtəlif səviyyələrdə mövcud və gözlənilən ixtiyari təhlükələri aşkar etsin və müflisləşməyə şərait yarada bilən əlamətləri aradan qaldırmaq mümkün olsun.

İqtisadi təhlükəsizlik problemi müxtəlif mülkiyyət formasına malik sahibkarlar qarşısında duran ən ciddi problemlərdən biridir. Beynəlxalq təcrübəyə istinadən qeyd edə bilərik ki, məhsul və xidmətlər bazarında rəqabət formalarının mövcudluğu, qanunvericilik bazasının kifayət qədər təkmil olmaması, müxtəlif təşkilati - hüquqi formaya malik çoxsaylı firma və şirkətlərin təşəkkül tapması, gizli - kölgə iqtisadiyyatının cəmiyyətin sosial-iqtisadi həyatında qalması, korrupsiya hallarının geniş vüsət alması, inhisarçı qruplaşmaların kriminallaşması və s. bu kimi hallar kiçik, orta (daxili və regional bazar sahibləri) və iri (fəaliyyət sferasının sərhədləri milli bazar və hətta dünya xammal bazarı ilə müəyyənləşən neft-qaz və dağ - mədən sahələri) biznes subyektlərini iqtisadi təhlükəsizlik və onun təmin edilməsi problemini həll etməyə vadar edir.

Aydındır ki, sahibkarlıq subyektlərini spesifik xüsusiyyətlərinə, texniki-iqtisadi göstəricilərin faktiki və normativ kəmiyyətlərə uyğunluq dərəcəsinə, iqtisadi təhlükəsizlik indikatorlarının son hədd səviyyəsi və ondan kənarlaşmaların kəmiyyətinə görə xarakterizə etmək mümkündür.

Nəzərə alınması vacib hesab edilən məqam ondan ibarətdir ki, orta və kiçik biznes subyektləri təkmil rəqabətin mövcud olmadığı bir mühitdə fəaliyyət göstərirlər və inhisarçılıq motivləri bu mühitdə özünü bir o qədər də yüksək səviyyədə büruzə etdirə bilmir. Odur ki, ikinci eşalona (orta və kiçik biznes subyektləri) aid təsərrüfat subyektlərinin bir-biri ilə rəqabət apardıqları regional bazarlar qeyri-təkmil rəqabətli bazar hesab olunur. Bu bazarlarda bir çox amillərin və şərtlərin (məsələn, inflyasiyanın artım tempi, investisiya mühitinin pisləşməsi, əhali gəlirlərinin azalması, ağırlaşan vergilərin dinamikası və s.) təsiri altında formalaşan və həcmcə məhdud olan kapitalın bir gəlirli sahədən digərinə axını prosesində intensivlik müşahidə olunmur. Bütün bunlar isə o nəticəyə gəlməyə əsas verir ki, orta və kiçik biznes subyektləri üçün qısamüddətli gəlirlərin əldə edilməsi taktikası daha aktual hesab olunmur və bütövlükdə iqtisadi təhlükəsizlik təmin edilməklə yüksək riskli fəaliyyətlərə üstünlük verilməsi lazım gəlir.

**Biznes subyektlərinin iqtisadi təhlükəsizliyinə təhdid yaradan amillər**

Biznes subyektlərinin iqtisadi təhlükəsizliyinə təhdid yaradan amilləri vaxtında müəyyənləşdirmək, onlara adekvat reaksiya vermək və aradan qaldırmaq üçün təhlükəsizlik meyarları və indikatorlarından istifadə mühüm əhəmiyyət kəsb edir.

R.İ.Ayzman qeyd edir ki, bütövlükdə milli iqtisadiyyatın, eləcə də ayrı-ayrı biznes subyektlərinin iqtisadi təhlükəsizliyinə təhdid yaradan amilləri dəqiq müəyyənləşdirmək üçün onların aşkar edilməsinə imkan verən göstəricilər sistemini-indikatorları düzgün seçmək lazımdır. Başqa sözlə, bu göstəricilər sisteminin köməkliyi ilə monitorinqin aparılmasında başlıca məqsəd strateji vəzifələri yerinə yetirən hər bir biznes subyekti üçün sahənin spesifik xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi təhlükəsizliyin diaqnostikasını həyata keçirməkdən ibarətdir [3].

Biznes subyektlərinin iqtisadi təhlükəsizliyi müxtəlif təşkilati, hüquqi, informativ, iqtisadi meyarların köməkliyi ilə qiymətləndirilir [4].

Təbii ki, istehsal-təsərrüfat fəaliyyətinin gedişi zamanı hər bir biznes subyekti hər şeydən əvvəl, onun iqtisadi vəziyyəti üçün neqativ nəticələr yarada biləcək müxtəlif fiziki və hüquqi şəxslərin təsirlərinə məruz qalır. Bunun üçün ilk növbədə müxtəlif sahələrdə sahibkarlıq subyektlərinin fəaliyyətini xarakterizə edən, iqtisadi təhlükəsizliyin müəyyən səviyyəsinə uyğun gələn son hədd göstəricisi kimi indikatorlardan istifadə edilir. Bu zaman iqtisadi təhlükəsizliyin son hədd səviyyəsi dedikdə göstəricilərin elə bir ədədi qiyməti başa düşülür ki, onun yüksəlməsi və ya ona nail olunmaması təhlükəsizlik üçün təhdidin mövcudluğunu sübut edir. Deməli, belə bir halda təhlükələr haqqında siqnal verə bildiyindən göstəricilər indikator hesab olunurlar.

Dövlət borcunun yol verilən səviyyəsi, hər bir ölkənin dünya bazarında mövqelərinin (bazar payının) qorunub saxlanılması və ya itirilməsi, milli iqtisadiyyatın və onun aparıcı sektorlarının (müdafiə sənayesi də daxil olmaqla) xarici texnologiya, xammal və dəstləşdirici materal bazarından asılılıq dərəcəsi və s. xarici təhdidlər baxımından indikator kimi çıxış edir.

İqtisadi təhlükəsizliyin mahiyyətini əks etdirən təhlükəsizlik meyarlarından sosial-iqtisadi sferada gedən mühüm proseslərin cari vəziyyətini qiymətləndirmək üçün istifadə olunur. İqtisadi təhlükəsizlik əsasən resurs potensialı və onun inkişaf imkanları; resurslardan səmərəli istifadə səviyyəsi; kapital və əmək, onun inkişaf etmiş və etməkdə olan ölkələrdə uyğunluq səviyyəsi; daxili və xarici xarakterli təhdidlərin minimum səviyyəsi; iqtisadiyyatın rəqabətqabiliyyəti; iqtisadi məkanın və ərazinin bütövlüyü, müstəqilliyi; xarici təsir və təhdidlərə tab gətirmək imkanı; sosial sabitlik və sosial münaqişələrin aradan qaldırılması və həlli şərtləri və s. bu kimi meyarlardan ibarətdir.

**İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi**

İqtisadi təhlükəsizliyi qiymətləndirmək üçün istifadə olunan göstəricilərdən daha çox onların son həddinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Son hədd kəmiyyət etibarı ilə elə bir hüdud, sərhəddir ki, ona riayət edilmədikdə və ya bu sərhəddi keçdikdə təkrar istehsal prosesinin hər bir elementinin normal fəaliyyət göstərməsi və inkişafına maneə yaranır, iqtisadi təhlükəsizlik sahəsində dağıdıcı, neqativ faktorlar formalaşır. Buna nümunə olaraq məsələn, işsizlik səviyyəsini, tam və qismən təmin olunmuş əhali qrupları arasında gəlir fərqlərini, inflyasiyanın artım tempini və s. göstərmək mümkündür. Qeyd edilən və edilməyən bu kimi iqtisadi göstəricilərin yol verilən son həddə yaxınlaşması cəmiyyətin sosial-iqtisadi təhlükəsizliyinə təhdidlətin yaranması, cəmiyyətin qeyri-sabit və sosial ziddiyyətlərlə dolu bir zonaya daxil olması, yəni, sosial-iqtisadi həyatda dağıdıcı, pozucu meyillərin təşəkkül tapmasının əyani sübutudur. Deməli, indikatorlar son həddi aşan zaman milli iqtisadiyyat dinamik özünüinkişaf, eləcə də daxili və xarici bazarlarda rəqabət qabiliyyətini itirir, milli və transmilli inhisarçılığın yayılması (ekspansiya) obyektinə çevrilir, korrupsiya və kriminal bataqlığına yuvarlanır, milli sərvətlərin daxili və xarici qarətindən, soyğunçuluğundan əziyyət çəkir.

Kəmiyyət xarakteristikalarına malik olan indikatorlar sistemi gözlənilən və ciddi təhlükələr haqqında məlumatların vaxtında verilməsinə və bununla bağlı müvafiq tədbirlər paketinin işlənib hazırlanmasına imkan yaradır. Qeyd etmək lazımdır ki, ən yüksək təhlükəsizlik dərəcəsinə yalnız bütün göstəricilər kompleksinin özlərinin yol verilən sərhədləri çərçivəsində yerləşdiyi və bir göstəricinin son həddinin digər bir göstəriciyə ziyan gətirmədiyi halda nail olmaq mümkündür.

İstehsal, maliyyə-kredit, sosial sferalarda biznes subyektlərinin iqtisadi təhlükəsizliyinə kompleks yanaşma fəaliyyətdə iqtisadi nəticələrin əldə edilməsinə imkanlar yaradır.

İqtisadi təhlükəsizlik indikatorları istehsal-təsərrüfat fəaliyyətində zəif yerləri aşkar etməyə, təhdidlərin aradan qaldırılması istiqamətlərini müəyyənləşdirməyə imkan verən göstəricidir. Milli iqtisadiyyatın inkişafı baxımından təhlükəsizlik indikatorlarının nəzərə alınmaması məhsul istehsalı həcminin və əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olacaq kritik nöqtələri müəyyənləşdirməyə imkan verir.

Prof. V. K. Sençaqovun fikrincə, “...iqtisadi təhlükəsizliyə təhdidlərin səviyyəsini müəyyənləşdirən çoxsaylı amillər içərisindən iqtisadiyyatın inkişafında kritik “xəstə nöqtələri” özündə əks etdirənləri seçib ayırmaq lazımdır. Məhz iqtisadi təhlükəsizliyin son həddinin müəyyənləşdirilməsində bu indikatorlardan istifadə olunur. Onlar son hədd səviyyəsini xarakterizə edir. Bu indikatorların nəzərə alınmaması iqtisadiyyatın və sosial sferanın normal inkişafına maneə yaradır, istehsal sahəsində və əhalinin həyat səviyyəsində dağıdıcı ənənələrin formalaşmasına səbəb olur” [4].

S. Q. Arbuzov, S. Q. Ezerski və S. V. Kaznçev iqtisadi təhlükəsiziliyin qiymətləndirilməsinin metodoloji məsələlərini nəzərdən keçirsələr də ilk dəfə K. S. Aynabek elmi dövriyyəyə iqtisadi sistemin “böhran vəziyyətinin son həddi” anlayışını daxil etmiş və hesab edir ki, bu zaman UDM 10-15% azalır, ÜDM-in aşağı düşdüyü hallarda “böhran vəziyyətinin son həddi” isə 30-40%-ə çatır” [5].

**İqtisadi təhlükəsizlik səviyyəsi və onun mərhələləri**

Maliyyə-iqtisadi və istehsal göstəriciləri, onların normativdən kənarlaşmalarını əsas götürməklə iqtisadi təhlükəsizliyin səviyyəsini normal-sabit, böhranqabağı, böhran və kritik mərhələlər kimi müəyyənləşdirmək olar.

İlk növbədə, orta və kiçik biznes subyektlərinin iqtisadi təhlükəsizliyini qiymətləndirən zaman bu subyektlərin ölçüləri və qeydiyyata alınan hüquqi şəxslərin sayı kimi göstəricilərdən istifadə edilir. Son dövrlərdə təsərrüfat subyektləri və burada çalışan işçilərin sayında dinamik artım biznes fəaliyyəti sahəsində müəyyən aktivləşmənin nəticəsi hesab olunur.

Hal-hazırda əsas fondların aşınması, köhnəlmə dərəcəsinin artması biznes fəaliyyəti üçün başlıca daxili təhlükə mənbəyi hesab edildiyindən, fikrimizcə, ikinci eşalon təsərrüfat subyektlərinin iqtisadi təhlükəsizliyini qiymətləndirən zaman meyar olaraq əsas vəsaitlərin texniki vəziyyəti və hərəkəti kimi göstəricilərdən də istifadə olunması məqsədəuyğun hesab olunur.

Makroiqtisadi səviyyədə iqtisadi təhlükəsizlik indikatorlarına aşağıdakılar aid edilir:

- iqtisadi artım;
- ölkənin təbii resurs, istehsal və elmi - texniki potensialı;
- təsərrüfat mexanizminin dinamikliyi və adaptivliyi, eləcə də onun xarici faktorlardan asılılığı;
- həyat keyfiyyətləri.

Orta və kiçik biznes strukturlarının maliyyə dayanıqlığını qiymətləndirmək üçün isə tətbiq edilən çoxsaylı göstəricilər içərisində ən geniş yayılanlarına aşağıdakılar aid edilr:

- mütləq, kritik və cari likvidlik əmsalı;
- balansda xüsusi vəsaitlərin xüsusi çəkisini (payını) göstərən avtonomluq əmsalı;
- xüsusi mənbələr hesabına formalaşan dövriyyə aktivlərinin xüsusi çəkisini göstərən dövriyyə aktivləri ilə təminat əmsalı;
- ehtiyatlarla təminat əmsalı və onların formalaşmasına xüsusi mənbələr hesabına çəkilən məsrəflər.

Biznes strukturlarının maliyyə dayanıqlığını qiymətləndirmək üçün istifadə olunan bu çoxsaylı əmsalların çatışmayan bircə cəhəti varsa, o da onların konsolidasiyası - birləşdirilməsi ilə bağlı meydana çıxan mürəkkəblik hesab olunur.

Müasir iqtisadi məkanda biznes subyektlərinin iqtisadi təhlükəsizliyini təmin edən mühüm amillərdən biri də kadrlar hesab olunur. İstehsal yerlərinin tələb olunan sayda əmək resursları ilə təminatı, onlardan rasional istifadə, əmək məhsuldarlığının yüksək səviyyəsi, məhsul istehsalı həcminin artırılması və istehsalın səmərəliliyinin yüksəldilməsi orta və kiçik biznes strukturları üçün mühüm əhəmiyyət daşıdığından onların iqtisadi təhlükəsizliyini qiymətləndirən zaman əmək resursları və həyata keçirilən kadr siyasəti kimi meyardan istifadə olunur.

Biznes strukturlarının peşəkar əmək resursları ilə təminatı və bu resurslardan səmərəli istifadə səviyyəsi nə qədər yüksək olarsa, nəticə ehtibarı ilə tələb olunan müddətdə yerinə yetiriləcək işlərin (istehsal edilən məhsulun) həcmi, istehsal avadanlıqlarından effektiv istifadə dərəcəsi, əldə edilən mənfəət kütləsi və maliyyə dayanıqlığı da bir o qədər yüksək olur.

Mövcud vəziyyətin düzgün qiymətləndirilməməsi, məsələlərin həllinə ədalət prizmasından yanaşılmaması rəhbər tərəfindən öz təsərrüfatına qarşı atılan iqtisadi cinayətkarlıq addımı kimi dəyərləndirilir. Buna görə yaxşı təsərrüfat başçısı kimi sahibkar kollektivdə mövcud olan mikromühitə hərtərəfli nəzarət etməli, mehriban, diqqətli və məlumatlı olmalı, təhdidləri aradan qaldırmaq, stabil və məhsuldar fəaliyyət göstərmək üçün özünün iqtisadi təhlükəsizliyini tələb olunan səviyyədə saxlamağı bacarmalıdır.

**İqtisadi təhlükəsizliyin metodologiyası**

Hal-hazırda çoxsaylı ədəbiyyatlarda seçilmiş hər bir istiqamət üzrə metodiki təhlil və qiymətləndirmənin aparılması üçün konkret tövsiyələr verilmiş və təkliflər irəli sürülmüşdür. Qeyd etmək lazımdır ki, biznes strukturlarının fəaliyyətini təhlil etmək üçün nəzərdə tutulan bu metodikaların əksəriyyəti bir-birini təkrarladıqlarından bir-birinin əlavəsinə çevrilmişlər. Aydındır ki, bu metodikaların içərisindən meyarlara uyğun vəziyyəti tam və dəqiq xarakterizə edən və təhlükələrin

son həddinin müəyyənləşdirməyə imkan verən universal göstəricilər seçilməlidir. Bu zaman hər bir meyara bir göstərici uyğun gəlməlidir.

Zabrodskinin irəli sürdüyü təklifə görə biznes subyektlərinin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi üçün proqram-məqsədli idarəetmə və inkişafın prinsip və şərtlərini özündə ehtiva edən yanaşmadan istifadə edilməsi daha məqsədəuyğundur [6, c. 35-37]. Bu yanaşmaya uyğun olaraq biznes subyektlərinin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi üçün iqtisadi təhlükəsizliyi müəyyənləşdirən inteqrativ göstəricilər toplusundan istifadə olunur. Təbii ki, bunun üçün ilk növbədə göstəricilərin bir neçə səviyyədə inteqrasiyasına, eləcə də klaster və çoxölçülü təhlil metodlarından istifadəyə daha çox üstünlük verilir.

Bir çox müəlliflər istənilən səviyyədə iqtisadi təhlükəsizliyə onun ayrılmaz tərkib hissəsi kimi çıxş edən təhdidlərin aradan qaldırılması nöqteyi-nəzərindən yanaşırlar. Nəzərə almaq lazımdır ki, iqtisadi təhlil nəzəriyyəsində təsərrüfat fəaliyyəti ilə bağlı yaranan risklər təhdid kimi tədqiq olunmur. Buna görə də təhlilin başlıca məqsədi məhz biznes subyektlərinin istehsal-təsərrüfat fəaliyyətinə yaranan təhdidlərin mahiyyətin başa düşmək və qiymətləndirməkdən ibarətdir. Bunun üçün isə iqtisadi ədəbiyyatlarda biznes subyektlərinin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi ilə əlaqədar verilən ayr-ayrı yanaşmalar elmi kontekstdə nəzərdən keçirilməli və bu yanaşmaların hər birinin müsbət və mənfi cəhətləri dəyərləndirilməlidir.

Bu baxımdan resursu effektiv fəaliyyətin əsas determinatı, mənfəətin əldə edilməsinin başlıca amili hesab edən E.B.Qolovanovla razılaşmamaq mümkün deyil [7]. Lakin, təsərrüfat fəaliyyətinə təhdidlərin əsaslandırılması zamanı resursun məhsul istehsalı və satışı ilə bağlı proseslərin ilkin şərti olması faktını qəbul etməklə məsələyə digər müstəvidən yanaşsaq görərik ki, anbarda yığılıb qalan və özü üçün satış bazarı tapmayan hazır məhsullar resursların effektiv istifadə edilməsi tezisi ilə adekvatlıq təşkil etmir. Təbii ki, bu da tədqiqatların əsaslandırılmasında çətinlik yaradır.

Nəzərə almaq lazımdır ki, sahibkarlıq subyektləri iqtisadi təhlükəsizliyin təmin edilməsində ikili rol oynayırlar. Bir tərəfdən onların özlərinin iqtisadi təhlükəsizliyini təmin edir, digər tərəfdən isə reqional və dövlət səviyyəsində müəssisə və təşkilatların fəaliyyətlərinin iqtisadi təhlükəsizliyinə kömək göstərirlər. Prof. V. V. Çernov qeyd edir ki, “...ölkənin iqtisadi təhlükəsizliyi bütün səviyyələrdə təsərrüfat subyektlərinin iqtisadi maraqlarının daxili tarazlaşdırılmasından asılıdır” [8, c. 38].

Tsikllik yanaşma təsərrüfat fəaliyyətində (istehsalda) yüksəliş və böhran hallarının bir-birini əvəz etməsi ilə şərtləşən tərəddüd proseslərini özündə ehtiva edir. Bu sahədə tədqiqat aparan alim və mütəxəssislər hesab edirlər ki, iqtisadi təhlükəsizlik təhdidləri məhz tsikllərin qovuşduğu yerdə - nöqtədə yaranır. Bizm fikrimizcə, təhdid çox böyük ehtimalla artım mərhələsindən böhra mərhələsinə və ya əksinə keçid anında təşəkkül tapır. Bu yanaşma resurslardan istifadə, satış və mənfəətin həcmi kimi göstəricilərin təhlilinə bilavasitə təsir etməklə iqtisadi təhlükəsizliyi kompleks qiymətləndirməyə imkan verir.

Prosesə yanaşma biznes proseslərinin bütün mərhələlər üzrə (giriş - əməliyyat tsikli - çıxış) fasiləsiz fəaliyyətinin təmin olunmasını, bu fəaliyyət nəticəsində gözlənilən bazar mənfəətinin əldə edilməsini və biznesin mütəmadi inkişafını nəzərdə tutur. Məhz bu yanaşmadan istifadə edilməsi məhsul istehsalı prosesinin bütün həlqələri arasında qarşılıqlı əlaqə və asılılıq uçota almaqla onu təşkil edən bütün elementlərin müfəssəl təhlilinə şərait yaradır.

Bu və ya digər göstəricilərin təhlili ilə əlaqədar olaraq təhdidlərin kəmiyyət baxımından qiymətləndirilməsini həyata keçirmək mümkün olmadığından tədqiq edilən, nəzərdən keçirilən bütün yanaşmalar biznes subyektlərinin iqtisadi təhlükəsizlik səviyyəsini müəyyənləşdirməyə imkan vermir.

Biznes subyektlərinin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi üçün indikativ yanaşmadan istifadə edilməsi daha məqsədəmüvafiq hesab olunur. İndikativ (indikator) yanaşma biznes subyektlərinin təsərrüfat fəaliyyətini xarakterizə edən faktiki göstəricilərin onların son hədd səviyyəsi ilə müqayisə edilməsinə əsaslanır. Qeyd etmək lazımdır ki, məhz L.İ.Abalkin, S.Y.Qlazyev və V.K.Senşaqova kimi görkəmli iqtisadçıların gərgin əməyi və yorulmaz səyləri nəticəsində indikativ yanaşma makro-iqtisadi səviyyəyə qədər yüksələ bildi [9, s. 5; 10, s. 113].

**Tədqiqatın nəticələrinin təhlili**

Bir sıra indikativ göstəricilər üzrə iqtisadi təhlükəsizliyin son həddinin müəyyənləşdirilməsi ölkə iqtisadiyyatının təhlükəsiz inkişafını qiymətləndirməyə imkan versə də, ayrı - ayrı biznes subyektləri səviyyəsində təhlükəsizliyin son hədd göstəricisi hələ müəyyən edilməmişdir. Praktik təcrübəyə istinadən deyə bilərik ki, iqtisadi təhlükəsizliyin təhlili və qiymətləndirilməsində son hədd göstəricisi yerinə ya plan, ya orta sahə, ya da normativ səviyyə göstəricilərindən istifadə edilir. Lakin son hədd indikatorlarından fərqli olaraq bütün bu göstəricilər bir ədədi qiymətlə məhdudlaşdığı halda son hədd göstəricisi aşağı və yuxarı səviyyəli iki ədədi qiymətə malik olur. Təbii ki, bu da öz növbəsində iqtisadi təhlükəsizliyin təhlili zamanı göstəricilərin son həddinin müəyyənləşdirilməsi kimi yeni bir məsələni ortaya çıxarır. Bünun üçün bir sıra metodlardan istifadə etmək mümkündür (*şəkil 1).*




***Şəkil 1. İndikatorların son həddinin ədədi qiymətini müəyyənləşdirən metodlar.***

Riyazi metod hesab edilən diferensial hesablama birdəyişənli funksiyanın eksremumlarının (maksimum və ya minimum) tapılmasından ibarətdir.

Xətti proqramlaşdırma, oyunlar nəzəriyyəsi və s. bu kimi optimallaşdırma metodları biznes subyektlərinin təsərrüfat fəaliyyətini xarakterizə edən bir sıra göstəricilərin (xərc, mənfəət, istehsalın həcmi və s.) optimal kəmiyyətini tapmağa imkan verir. Nəzərə alınmalıdır ki, göstəricilərin son həddinin səviyyəsi optimal kəmiyyətin hüdudları daxilində - civarında ola bilər.

Variasiya əmsallarının hesablanmasına əsaslanan statistik metoddan istehsal-təsərrüfat fəaliyyətini xarakterizə edən göstəricilərin tərəddüd - kənarlaşma səviyyəsini müəyyənləşdirmək məqsədi ilə istifadə olunur. Təhlilin bu növü stabilliyin, məsələn satışın təhlilinə imkan verməklə bərabər əmsalların aldığı ədədi qiymətlərə görə iqtisadi təhlükəsizilik səviyyəsini müəyyənləşdirmək mümkün olur.

Qiymətləndirmənin ekspert metodu nəzərdən keçirilən məsələ üzrə obyektiv, real nəticənin əldə edilməsinə bilavasitə yardımçı olmaqla peşəkar ekspertlərin mülahizələrinə əsaslanır. Beyin hücumları və ya digər metodlardan istifadə etməklə öz işlərini fərdi və qrup şəklində quran ekspertlərin fəaliyyəti nətcə etibarı ilə subyekti gözləyən təhdidlərlə yanaşı, eyni zamanda bu təhdidlərin son hədd səviyyəsini müəyyənləşdirməkdən ibarətdir.

İqtisadi təhlil nəzəriyyəsi kontekstində indikatorların son hədd səviyyəsini təyin edən analitik metod (marjinal təhli, dinamik və kompleks qiymətləndirmə metodikası) özünün tətbiq xüsusiyyətinə görə fərqlənir.

Marjinal təhlil istehsal və satış proseslərində ziyansızlıq nöqtəsini və ya rentabelliyin son həddini, yəni, təhlükəsizliyin minimum sərhəddini (bundan aşağı istehsal fəaliyyəti ziyanla başa gəlir) təyin etməyə imkan verir.

Kompleks qiymətləndirmə biznes subyektinin müxtəlif fəaliyyət sferasını xarakterizə edən göstəricilər sistemindən istifadəyə əsaslanır. Kompleks qiymətləndirmə metodları içərisində təhlil edilən illər (rüblər) üzrə göstəricilərin etalon səviyyəsini seçib ayırmağa imkan verən məsafə metodu bir sıra spesifik xüsusiyyətlərə malikdir. Etalon səviyyə kimi subyektin təhlil aparılan dövrdə bundan artıq yüksək göstəriciyə nail olmadığı son hədd indikatorlarının yuxarı səviyyəsi qəbul edilir. Bu tip yanaşmaya görə isə ən aşağı göstərici son hədd səviyyəsi kimi götürülür.

Dinamik qiymətləndirmə adından da göründüyü kimi təhlil edilən göstəricilər üzrə artım tempinin hesablanmasını və artım tempindəki nisbətlərin qiymətləndirilməsini nəzərdə tutur. Bunun üçün ilk olaraq artım tempi (dinamik normativlər) üzrə etalon sıralar formalaşdırılır. Dinamik qiymətləndirmə metodikası subyektin çox müvəffəq fəaliyyət göstərməsi üçün aşağı (0,3) və yuxarı (1.0) həddin səviyyəsini müəyyənləşdirməyə kömək edən inkişaf əmsalının hesablanmasına imkan verir.

Beləliklə, biznes subyektlərinin iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsinə statistik yanaşma tədqiq edilən göstəricilərin variasiyası ilə onun son hədd səviyyəsi arasında tarazlığa - amplitudaya nail olmağa imkan verir. Əgər kadr axını əmsalını (aşağı səviyyəsi 0.0, yuxarı səviyyəsi isə 10% müəyyənləşdirilir) 8%, variasiya əmsalını isə 13% qəbul etsək, biznes subyektlərində kadr axını əmsalı ilə variasiya əmsalı arasında asılılıq kadr axını ilə əlaqədar iqtisadi təhlükəsizlik zonasını üç formada təsnifləşdirməyə imkan verir *(şəkil 2).*




***Şəkil 2. Biznes subyektlərində kadr axını ilə əlaqədar iqtisadi təhlükəsizlik zonası [1, c. 99].***

A- yol verilən risk zonası;

B- kritik risk zonası;

C- subyektin iqtisadi təhlükəsizliyi üçün təhdid zonası (katostrofik risk zonası).

Şəkil 2- dən də göründüyü kimi kadr axını əmsalı aldığı ədədi qiymətə görə yol verilən risk zonası ilə kritik zona arsında yerləşməsinə baxmayaraq o kritik risk zonasına (iqtisadi təhlükəsizliyə təhdidlərin yarandığı zona) aid edilir. Bu isə kadr axınında əhəmiyyətli dəyişikliklərin-tərəddüdlərin olmasını göstərməklə bərabər müəssisənin kadr siyasəti sahəsində meydana çıxan mövcud problemləri xarakterizə edir. Perspektiv dövr üşün əmsalda baş verən tərəddüdlər - kənarlaşmalar bu səviyyədə qalarsa və ya yüksələrsə, bu, nəticə etibarı ilə kadr axınının artmasına və kadr baxımından təhlükəsizlik səviyyəsinin aşağı düşməsinə səbəb olacaqdır. Təbii ki, nəticə etibarı ilə məhsulun istehsal həcmini və fəaliyyətin maliyyə nəticələrini çox asanlıqla proqnozlaşdırmaq üçün əlverişli şərait yaradır.

*Nəticə*

Beləliklə, biznes subyektlərinin iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsinə dinamik yanaşma bu subyektlərin inkişaf dinamikasını qiymətləndirməyə yönəli bir fəaliyyətdir. Bunun üçün ilk növbədə göstəricilərin (məsələn, məhsulların satış həcmi göstəricisindən istifadə edilməsi məqsədəuyğun olardı) artım tempinin son hədd səviyyəsi müəyyənləşdirilir. Dinamik qiymətləndirmə mahiyyətinə görə göstəricilərin dinamikasına əsaslandığından son hədd çərçivəsində “təhlükəsizlik dəhlizini” təyin etmək lazım gəlir. Ekspertlərin qiymətləndirmələrinə görə subyektlər üçün iqtisadi təhlükəsizlik dəhlizi satış həcminin artım tempinin 103-120% civarında müəyyənləşdirilir.

**ƏDƏBİYYAT**

1. Авдийский В.И. Национальная и региональная экономическая безопасность России: учеб. пособие/В.И.Авдийский, В.А.Дадалко, Н.Г.Синявский. М.: ИНФРА-М, 2019. 363 с.
2. Богомолов В.А. Экономическая безопасность: теория и практика обеспечения. М.: ППП "Наука", 2017. с. 35-45.
3. Айзман Р.И. Безопасность жизнедеятельности. Словарь справочник.-Новосибирск: Сибирское университетское издательство, 2016. - 352 с.
4. Экономическая безопасность России. Общий курс. Учебник под ред. В.К.Сенчагова, 2-ое изд. М.: Дело, 2015. 986 с.
5. Айнабек К.С. Теория общественного хозяйствования (Альтернатива экономической теории и экономикса): Учебник: исправл. и дополн. – Караганда: КЭУК, 2014. – 608 с.
6. Забродский В. Теоретические основы оценки экономической безопасности отрасли и фирмы. // Бизнес-информ. – 2018. - № 15.–16. - с. 35 – 37.
7. Голованов Е.Б. Оценка уровня экономической безопасности государства на примере ведущих стран мира: теоретический и методологический аспекты / Е.Б.Голованов, Е.В. Борцова. Издательский центр ЮУрГУ (Челябинск), 2020.–194с.
8. Афонцев С. Дискуссионные проблемы концепции национальной экономической безопасности. Россия XXI. - 2001. - № 2. с. 38.
9. Абалкин Л.А. Экономическая безопасность России: угрозы и их отражение. Вопросы экономики. - 2016. ЛИ- 12. с. 5.
10. Глазьев С.Ю. Безопасность экономическая. Политическая энциклопедия. Т.1. - М.: Мысль, 1999. - с. 113.

***Тогрул Рамиз оглы Акбарлы***
***Ленкоранский Государственный Университет, докторант***
***togrulakberli@yahoo.com***

## Некоторые аспекты оценки эффективности системы экономической безопасности в условиях кризиса

*Резюме*

**Цель исследования -** анализ различных аспектов оценки эффективности системы экономической безопасности в условиях кризиса.

**Методология исследования -** методы сравнительного анализа, логического обобщения, анализа и синтеза

**Значимость исследования -** анализ исследования может быть использован как шаг к защите финансово-экономической безопасности предприятий в условиях кризиса.

**Результаты исследования -** статистический подход к оценке уровня экономической безопасности субъектов хозяйствования позволяет достичь баланса между вариацией изучаемых показателей и ее предельным уровнем - амплитудой. Динамический подход к

оценке уровня экономической безопасности субъектов хозяйствования представляет собой деятельность, направленную на оценку динамики развития этих субъектов. Для этого прежде всего необходимо определить предельный уровень темпов роста показателей.

**Оригинальность и научная новизна исследования -** Характеризуется оригинальность и научная новизна исследования - защита экономической безопасности и оценивается план действий, который может быть использован против потенциальных угроз, возникающих из-за различных рисков, с которыми сталкиваются хозяйствующие субъекты

***Ключевые слова: экономическая безопасность, субъекты бизнеса, угроза, индикатор, зона риска.***

***Togrul Ramiz oglu Akbarli***
***Lankaran State University, PhD candidate***
***togrulakberli@yahoo.com***

## Some aspects of assessing the effectiveness of the economic security system in a crisis

***Summary***

**The purpose of the study** is to analyze various aspects of evaluating the effectiveness of the economic security system in a crisis.

**Research methodology -** methods of comparative analysis, logical generalization, analysis and synthesis

**Significance of the study** - the analysis of the study can be used as a step towards protecting the financial and economic security of enterprises in a crisis.

**The results of the study -** a statistical approach to assessing the level of economic security of business entities makes it possible to achieve a balance between the variation of the studied indicators and its limiting level - amplitude. A dynamic approach to assessing the level of economic security of business entities is an activity aimed at assessing the dynamics of development of these entities. To do this, first of all, it is necessary to determine the limiting level of growth rates of indicators.

**Originality and scientific novelty of the research -** The originality and scientific novelty of the research is characterized - the protection of economic security and an action plan is evaluated that can be used against potential threats arising from various risks faced by business entities

***Key words: economic security, business entities, threat, indicator, risk zone.***